Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# Azərbaycanın tarixi şəxsiyyətləri UNESCO-nun mədəniyyət və irs platformalarında...

**Azərbaycan dövləti hər zaman beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsi, səmərəli olması, inkişaf etdirilməsi üçün öz səylərini əsirgəmir. Dövlətimiz üzv olduğu hər bir təşkilat qarşısında üzərinə götürdüyü bütün öhdəlikləri çox yüksək səviyyədə həyata keçirir və yaxından əməkdaşlıq edir.**

## II yazı

Azərbaycan dövləti uzun illərdir BMT-nin elm, təhsil, mədəniyyət üzrə təsisatı olan UNESCO ilə sıx əməkdaşlıq edir. UNECSO-nun bütün humanitar, mədəni tədbirlərində yaxından iştirak edib, maliyyə dəstəyi göstərib.

Azərbayacanın maddi-mədəni, tarixi irsinin dünyaya çıxması, əlbəttə ki, bizim ən mühüm hədəflərimizdən biri olub və dövlətimiz hər zaman bu istiqamətdə çox mühüm addımlar atıb. Tarixi şəxsiyyətlərimizin, elm-mədəniyyət xadimlərimizin, yazılı və şifahi, tarixi-mədəni, arxeoloji abidələrimizin beynəlxalq aləmdə təbliğ edilməsi, tanıdılması üçün UNESCO çərçivəsində indiyə qədər xeyli iş görülüb.

Bu istiqamətdə Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyinin əməyi də gözdən qaçmır. Eyni zamanda, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası mədəniyyət və humanitar sahələrdə ən müxtəlif səpkili layihələrin, seminarların və beynəlxalq tədbirlərin həyata keçirilməsində mühüm rol oynayıb. UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının bu layihələrindən biri də məhz UNESCO-nun Yubileylər Proqramı çərçivəsində tanınmış şəxsiyyətlərin və əhəmiyyətli hadisələrin qeyd edilməsidir ki, ötən yazımızda qeyd etdiyimiz kimi, bu çərçivədə çox böyük işlər görülüb.

### "Azərbaycan-UNESCO əlaqələri" elektron layihəsi…

Məlum olduğu kimi, Azərbaycan-UNESCO əlaqələrinin 25 illiyi ilə əlaqədar olaraq Prezident Kitabxanasında "Azərbaycan-UNESCO əlaqələri" adlı elektron layihə hazırlanıb. Azərbaycan-UNESCO əlaqələrinin daha da möhkəmlənməsi üçün həyata keçirilən tədbirlər sırasında dahi şəxsiyyətlərimizin yubileylərinin UNESCO xətti ilə qeyd edilməsi xüsusi yer tutur.

Prezident Kitabxanasında eyniadlı layihədə əks olunan məlumatlara görə, 2015-ci ilin noyabr ayında keçirilən UNESCO-nun Baş Konfransının 38-ci sessiyasında Azərbaycan tərəfindən təqdim olunmuş 3 yubiley tədbirinin 2016-2017-ci illərdə qeyd olunmasına dair qərar qəbul edilib. Belə ki, 2017-ci ilin 30 oktyabr-14 noyabr tarixlərində keçirilmiş UNESCO Baş Konfransının 39-cu sessiyasında Azərbaycan tərəfindən təqdim olunmuş 2 yubiley tədbirinin - Qara Qarayevin 100 illik yubileyi və Bakı Dövlət Universitetinin 100 illik yubileyinin 2018-2019-cu illərdə qeyd olunmasına dair müsbət qərar qəbul edilib.

### UNESCO çərçivəsində keçirilmiş tədbirlər…

1994-cü ildə Orxon-Yenisey abidələrinin oxunmasının 100 illik yubileyi, 1996-cı ildə Füzulinin anadan olmasının 500 illik yubileyi ilə əlaqədar tədbirlər, 1997-ci ildə texniki peşə təhsilinin problemlərinə dair, 1999-cu ildə tərcüməçilik problemlərinə dair, 2000-ci ildə "Kitabi Dədə Qorqud"un 1300 illik yubileyi ilə əlaqədar, 2001-ci ildə Qafqaz dövlətlərinin pedaqoji ali məktəblərinin ikinci regional toplantısı, 2001-ci ildə N.Tusinin anadan olmasının 800 illik yubileyi ilə əlaqədar, 2001-ci ildə mədəni irsin qorunmasına dair normativ aktlara həsr olunmuş beynəlxalq seminar, 2001-ci ildə "Rəqəmli İpək yolu" regional seminar, 2002 -ci ildə XX əsrin ən mühüm hadisələri haqqında, 2002-ci ildə Mirzə Kazım bəyin 200 illik yubileyinə dair, 2003-cü ildə GUAM ölkələri arasında mədəni dəhlizə dair, 2003-cü ildə UNESCO Türk Dövlətlərinin Kosmik Nəsil Forumu, 2003-cü ildə professional fəaliyyətdə informasiya-kommunikasiya texnologiyalarının istifadə edilməsində professional təcrübənin artırılmasına dair seminar, 2004-cü ildə "Silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında" Konvensiyanın 50 illiyinə dair, UNESCO Assosiativ Məktəblər Şəbəkəsi (ASPnet) üzrə milli əlaqələndiricilər və bu şəbəkəyə daxil olmuş məktəblərin müəllimləri üçün "Keyfiyyətli təhsil təcrübədə" mövzusunda regional seminar, 2005-ci ildə "Azərbaycan təhsil sistemində islahatlar" mövzusunda konfrans, 2005-ci il 5-6 may tarixlərində UNESCO-nun dəstəyi və Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə Bakıda GUAM ölkələrinin mədəni siyasət üzrə Avropa-Qafqaz-Asiya Observatoriyasının yaradılması məqsədilə konfrans keçirilib.

Rəsmi məlumata görə, 2005-ci ilin 1-3 iyun tarixlərində Beynəlxalq Enerji, Ekologiya, İqtisadiyyat Konqresi, 2005-ci ilin 23-26 avqust tarixlərində UNESCO-nun baş direktoru Koiçiro Matsuura Azərbaycanda rəsmi səfərdə olub, 2005-ci il 24 avqust tarixində Bakı şəhərində "UNESCO-Azərbaycan: gələcəyə körpü" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransın sonunda UNESCO ilə Azərbaycan arasında təhsil sahəsində əməkdaşlığa dair Qarşılıqlı Anlaşma Memorandumu imzalanıb. Memorandumda təhsildə bərabər imkanların yaradılması, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, təhsilin bütün pillələri üzrə kurrikulumun yeniləşdirilməsi və müəllimlərin ixtisasartırma sisteminin təkmilləşdirilməsi vasitəsilə keyfiyyətin artırılması, beynəlxalq əməkdaşlıq şəbəkəsinin təşkili və digər əsas prioritetlər əks olunub.

Məlumatda qeyd edilir ki, 2006-cı il 5-11 mart tarixlərində Qobustan Dövlət Bədii-Tarixi Qoruğunun UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ilə bağlı Heydər Əliyev Fondunun dəstəyilə iki Norveç ekspertinin Azərbaycana səfəri təşkil edilib. Səfər nəticəsində ekspertlər tərəfindən UNESCO-nun tələblərinə uyğun olan Tədbirlər Planı hazırlanıb.

### Azərbaycan muğamları ilə bağlı mühüm qərar…

Azərbaycan muğamının UNESCO-nun İrs siyahısına daxil edilməsi həqiqətən də mühüm hadisə




idi.

"UNESCO və Azərbaycan əlaqələri"ndə vurğulanır ki,

2006-cı il 19 may tarixində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Sərəncamına əsasən, Azərbaycan Respublikası hökuməti ilə UNESCO arasında "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsəri olan Azərbaycan muğamının qorunması üzrə Milli Fəaliyyət Planının həyata keçirilməsi layihəsi üzrə Saziş" imzalanıb.

Azərbaycan-UNESCO əlaqələri çərçivəsində həyata keçirilən mühüm hadisələrdən biri də 2007-ci ildə UNESCO-nun maliyyə dəstəyilə "Azərbaycanın ənənəvi musiqi Atlası" internet saytının yaradılmasıdır. 2008-ci il dekabr ayının 27-də Bakıda - dənizkənarı Milli Parkda UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə inşa olunan Beynəlxalq Muğam Mərkəzinin açılışı olub və tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva iştirak edib.

### Bakıda Birinci Beynəlxalq Muğam Festivalı…

Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın muğama göstərdiyi qayğı və diqqət özünü bütün istiqamətlərdə göstərir. Məhz M.Əliyevanın səyi, təşəbbüsü və dəstəyilə Azərbaycan muğamı dünyaya çıxdı və UNESCO səviyyəsində geniş şəkildə tanıdıldı, təbliğ edildi.

Bildiyimiz kimi, 2009-cu il 18-25 mart tarixlərində Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə Bakıda Birinci Beynəlxalq Muğam Festivalı təşkil olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, Bakıda rəsmi səfərdə olan (19-21 mart, 2009-cu il) UNESCO-nun baş direktoru cənab Koiçiro Matsuura və dünyanın 17 ölkəsindən festivala gəlmiş çoxsaylı qonaq mərasimdə iştirak etmişlər. Festival çərçivəsində elmi simpoziumlar, muğam ifaçılarının beynəlxalq müsabiqəsi və müxtəlif konsertlər təşkil edilib.

### Nəsiminin vəfatının 600 illiyi, Vaqifin 300 illik yubileyi UNESCO-da qeyd edilib

Azərbaycanın tarixi şəxsiyyətlərinin, mədəniyyət xadimlərinin, mədəniyyətinin, ölkəmizdə baş verən mühüm tarixi hadisələrin UNESCO platformasında təbliğ edilməsi heç şübhəsiz ki, mədəniyyətimizin bəşəriyyətin həyatında nə qədər böyük rol oynadığını açıq şəkildə göstərir.

"Azərbaycan-UNESCO əlaqələri" məqaləsinə nəzər saldıqda görürük ki, 2013-cü il mayın 19-da orta əsrlər Azərbaycan şeirinin görkəmli nümayəndəsi Məhsəti Gəncəvinin 900 illik yubileyi UNESCO-nun Baş Qərargahında qeyd edilib və bu kimi mühüm tədbirlər Azərbaycan-UNESCO əlaqələrinin möhkəmlənməsində, səmərəli inkişafında mühüm rol oynayan Mehriban Əliyevanın səyləri nəticəsində keçirilib.

UNESCO çərçivəsində keçirilən tədbirlərdən biri də 2014-cü ildə Azərbaycan, İran, Türkiyə və Tacikistanla birgə Əbdülqədir Maraağayinin "Ma-qasid əl-Əlhan" əsərinin 600 illiyinun UNESCO Baş Konfransı tərəfindən beynəlxalq səviyyədə qeyd olunmasına qərar verilməsidir. 2015-ci ildə orta əsrlərin tanınmış alimi və mütəfəkkiri Əhməd Əl-Bərdəçinin vəfatının 1100 illiyinin noyabrın 20-də keçirilən UNESCO Baş Konfransının 37-ci sessiyası çərçivəsində qurum tərəfindən qeyd edilməsinə qərar verilməsi də mühüm hadisələrdən biri kimi tarixə düşüb.

"Kitabi Dədə Qorqud" eposunun alman dilinə tərcüməsinin və nəşrinin 200 illik yubileyinin qeyd edilməsi də (Azərbaycan, Türkiyə, Qazaxıstan və Türkmənistanın UNESCO üzrə milli komissiyaları və daimi nümayəndəliklərinin təşkilatçılığı və Beynəlxalq Türk Akademiyasının dəstəyilə keçirilib) əlamətdar bir tarixdir.

Nəsimi irsinə həm Azərbayanda, həm də beynəlxalq aləmdə çox mühüm əhəmiyyət verilir. Belə ki, 2017-ci il mayın 18-də Parisdə UNESCO-nun Baş Qərargahında Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin və Azərbaycanın UNESCO yanında Daimi Nümayəndəliyinin birgə təşkilatçılığı ilə ölkəmizin UNESCO-ya üzv olmasının 25 illik yubileyinin qeyd edilməsi çərçivəsində böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin vəfatının 600-cü ildönümü ilə əlaqədar tədbirin keçirilməsi də yaddaqalan mühüm bir hadisədir.

Məlum olduğu kimi, UNESCO 2016-cı ili Azərbaycan klassik ədəbiyyatının iki görkəmli nümayəndəsi - İmadəddin Nəsimi və Molla Pənah Vaqif ili elan etmişdi.

2018-ci ilin iyun ayının 7-də Parisdə, UNESCO-nun mənzil-qərargahında "Qeyri-maddi mədəni irsin mühafizəsi haqqında Konvensiya"nın iştirakçı dövlətlərinin Baş Assambleyasının 7-ci sessiyası keçirilib. Sessiya çərçivəsində habelə UNESCO-da akkreditasiyadan keçmiş qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə UNESCO QHT Forumu baş tutub. UNESCO QHT Forumunda Aşıq Şəmşirin anadan olmasının 125 illiyi qeyd edilib.

***İradə SARIYEVA***

**P.S. Məqalədə Prezident Kitabxanasının "Azərbaycan-UNESCO əlaqələri" məqaləsindən istifadə olunub.**

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**